## Vyetnamda 2020/21-ci tədris ili üzrə təhsil təqaüd proqramı

**Ümumi məlumat:** Vyetnam Milli Universitetinin Beynəlxalq Frankofoniya İnstitutu 2020/21-ci il tədris ili üzrə Azərbaycan Respublikasının vətəndaşları üçün Vyetnam Milli Universiteti və Fransanın "University of La Rochelle" ali təhsil müəssisəsi ilə birgə həyata keçirdiyi magistratura səviyyəsi üzrə təqaüd proqramı elan edir.

| | |
|---|---|
| **Təhsil səviyyəsi:** | magistratura |
| **Kvota:** | 3 yer |
| **Tədris dili:** | fransız dili |
| **Təhsil müddəti:** | 2 il |
| **İxtisas:** | kompüter elmləri (informasiya texnologiyaları) |
| **Müraciət üçün son tarix:** | **15.07.2020** |
| **Maliyyələşmə:** | təhsil haqqı (2 akademik il üçün 85 milyon vyetnam donqu (3700 dollar) xərci universitet tərəfindən qarşılanır) |

**Seçim meyarları və tələb olunan sənədlər:**

- ingilis dilində elektron ərizə forması (keçid);
- CV və motivasiya məktubu (fransız dilində);
- bakalavriat diploma;
- akademik transkript;
- tövsiyə məktubu ( professor və ya kömpüter mütəxəssisi adından yazılmış);
- kompüter elmləri sahəsinə aid olan BAC+3 lizensiyası;
- fransız dili biliyinin olması (min B2 və ya bunun ekvivalenti TCF 400) bakalavriat səviyyəsi üzrə tədris dili fransiz dilində olanlar bu tələbdən azaddırlar;
- sağlamlıq haqqında arayış (namizədin hər hansı infeksiya və ya yoluxucu xəstəliyi olmaması barədə məlumat qeyd olunmaq);
- ümumvətəndaş pasportu;
- 4 ədəd 3x4 formatda şəkil ( son 6 ayda çəkilmiş foto olmalıdır);
- Vyetnamda yaşamaq üçün maliyyə mənbəyinin olmasını sübut edən sənədlər:
  - Məsələn: namizədin adına minimum 3600 ABŞ dolları (və ya bu valyutanın ekvivalenti) olan bank hesabı;

- əgər namizəd hər hansı şəxs və ya təşkilat tərəfindən maliyyələşirsə həmin şəxsin və ya təşkilatın səlahiyyətli nümayəndəsinin şəxsiyyət vəsiqəsinin süröti və minimum 3600 dollarlıq (və ya bu valyutanın ekvivalenti) bank hesabı;
- Hər hansı Vyetnam bankında minimum 3600 dollar olmaq şərtilə bank hesabının olması;
- təhsil kreditinin olması barədə bank hesabı.

**Qeyd olunan sənədlərin surətləri notarial qaydada ingilis və ya fransız dilinə tərcümə-təsdiq olunmalıdır. Göstərilən sənədlər sonda universitetə təqdim olunur.**

**Ətraflı məlumatı keçiddən əldə etməyiniz tövsiyə edilir.**

**Müsahibə mərhələsi "Skype" vasitəsilə keçiriləcəkdir.**

*Qeyd: Elektron ərizə forması etudes@ifi.edu.vn və ya etudes.ifi@gmail.com elektron poçtlarından birinə təqaüd proqramı üçün elan olunmuş son müraciət tarixindən əvvəl göndərilməlidir.

Onlayn registrasiya üçün keçid: http://admissions-apply.vnu.edu.vn/

**Əlaqə vasitələri:**

Tel: +84 24 37549505

Email: etudes@ifi.edu.vn / etudes.ifi@gmail.com

Rəsmi internet səhifə: www.ifi.vnu.edu.vn

Facebook: https://www.facebook.com/IFI.VNU